# 100 il dövlətçiliyin və qanunçuluğun keşiyində

***"Müstəqil Azərbaycan Respublikasının demokratik məzmunlu sivil dövlət təsisatı Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi, mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram."***

***Heydər Əliyev.***

Müstəqil Azərbaycan dövlətinin prokurorluq orqanlarının tarixi 100 il bundan əvvələ dayanır. Azərbaycan Respublikasının dövlət təsisatları sırasında xüsusi yeri və statusu olan, yarandığı gündən indiyədək mürəkkəb, lakin eyni zamanda çox şərəfli bir inkişaf yolu keçmiş, zamanın çətin sınaqları ilə üzləşmiş Azərbaycan Prokurorluğu bütün imtahanlardan üzüağ çıxmaqla, öz doğma xalqına və müstəqil dövlətçiliyimizin maraqlarına xidmət edən demokratik bir quruma çevrilmişdir.

Müasir dövlət qurumlarımızın bir çoxu kimi prokurorluq orqanlarının da yaranması əlamətdar tarixlə - ötən əsrin əvvəllərində Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkül tapması ilə birbaşa bağlıdır. Belə ki, ölkənin milli prokurorluq orqanları ilk dəfə Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla fəaliyyətə başlamışdır. F.Xoyski, X.Xasməmmədov, A.Safikürdski, T.Makinski Azərbaycan Xalq Cumhurriyyətinin ədliyyə nazirləri, eyni zamanda baş prokurorları olmuşlar. Olduqca mürəkkəb və ağır şəraitdə fəaliyyət göstərən Azərbaycan Xalq Cumhuriyyətinin Məhkəmə palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində olan prokurorluq orqanları öz səlahiyyətləri imkanında böyük işlər görmüşlər. Xalq Cümhuriyyətinin süqutundan sonra kommunist partiyasının mütləq hakim olduğu sovetlər rejiminin yaşadığı 70 il ərzində Azərbaycan Prokurorluğu təşkilati cəhətdən mühüm dövlət strukturu kimi təşəkkül tapmış, milli kadrlarımız böyük təcrübə və yüksək peşə hazırlığı əldə etmişlər.

Uzun və mürəkkəb bir inkişaf yolu keçən Azərbaycanın prokurorluq orqanları yalnız ölkəmiz öz dövlət müstəqilliyini qazandıqdan sonra ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə həyata keçirilən möhtəşəm və hərtərəfli islahatlar nəticəsində tamamilə yenidən qurulmuş, qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən orqana çevrilməklə demokratik inkişaf yolu keçmişdir.

1995-ci ilin 12 noyabrında ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsində prokurorluğun statusu, təşkili və fəaliyyəti ilə bağlı əsas məqamlar öz əksini tapmışdır. Bu konstitusiya prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqan kimi tanımış, onun statusunu müəyyənləşdirmişdir. Həmin statusa uyğun olaraq 7 dekabr 1999-cu il tarixdə «Prokurorluq haqqında» Qanun qəbul edilmişdir. Həmin Qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət etmək, cinayət işlərinin istintaqını aparmaq və ibtidai araşdırmaya prosessual rəhbərlik, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icra və tətbiqinə nəzarət, cinayət işlərinə baxılmasında dövlət ittihamının müdafiəsi, məhkəmələr tərəfindən təyin olunmuş cəzaların məqsədinə nail olunmasında iştirak etmək, baxılan işlər barədə çıxarılmış yekun məhkəmə aktlarından protest vermək, qanunla nəzərdə tutulmuş qaydada və hallarda inzibati xəta haqqında iş üzrə icraat başlamaq məsələlərini prokurorluğun fəaliyyət istiqamətlərinə aid etmişdir.

Bir əsrə yaxın müddət ərzində dövlətin ən etibarlı dayağı kimi fəaliyyət göstərməsinə baxmayaraq, digər sahələrdən fərqli olaraq, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsinə heç bir təşəbbüs göstərilməmişdi. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin göstərdiyi diqqət və qayğı nəticəsi kimi 17 iyul 1998-ci il tarixdə onun tərəfindən imzalanmış sərəncama əsasən, hər il oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunur. Belə bir günün təsis edilməsi prokurorluq əməkdaşlarının fəaliyyətinin layiqincə dəyərləndirilməsinin və prokurorluğa göstərilən böyük qayğının təzahürüdür.

Prokurorluq orqanlarının qanunçuluğun və hüquq normalarının etibarlı təminatı sahəsində nüfuzlu təsisata çevrilməsi, yenidən təkmilləşdirilərək fəaliyyətini yeni dövrün tələbləri səviyyəsində qurması məhz Heydər Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi islahatlar nəticəsində mümkün olmuşdur. Bu dövr ərzində qəbul olunmuş “Cinayət”, “Cinayət-Prosessual”, “Cəzaların icrası”, “Mülki”, “Mülki-Prosessual”, “İnzibati xətalar” məcəllələri, “Prokurorluq haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında”, “Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında”, “Prokurorluğun rəsmi emblemi haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” qanunlar, “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamə və digər mühüm normativ-hüquqi aktlar bütövlükdə demokratik cəmiyyətdə prokurorluğun yeri və rolunu müəyyən etmişdir.

Ümummilli lider Heydər Əliyevin 26 aprel 2000-ci il tarixdə prokurorluq orqanlarının rəhbər işçiləri ilə keçirdiyi müşavirədən sonrakı müddət ərzində Azərbaycanda beynəlxalq standartlara uyğun prokurorluq orqanlarının formalaşdırılması prosesi əsasən yekunlaşmış, bundan sonra bu



dövlət təsisatının ölkənin hüquq sistemində əhəmiyyətinin artırılması istiqamətində mühüm tədbirlər görülməklə, prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə və yüksək dünya standartlarına uyğun olaraq daha yüksək səviyyədə qurulması üçün hərtərəfli təkmilləşdirilməsi və müasirləşdirilməsi mərhələsi həyata keçirilməyə başlanmışdır.

Məhz ümummilli liderimiz Heydər Əliyevin təklifi ilə 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmiş, bununla da onun hüquq sistemindəki yeri və rolu daha da güclənmişdir. Bu addım prokurorluq orqanlarına insan hüquq və azadlıqları sahəsində praktiki fəaliyyətlə yanaşı, qanun yaradıcılığı prosesində fəal iştirak imkanları yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi altında başlanan hüquq islahatları və hərtərəfli dövlət qayğısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilir.

Müasir dövrdə hər bir cəmiyyətdə müşahidə edilən korrupsiya xarakterli cinayətlərə qarşı ölkəmizdə elan olunmuş barışmaz mübarizə dövlət başçısının siyasi iradəsidir. Dövlət başçısının "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 3 mart 2004-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında korrupsiya cinayətləri üzrə ixtisaslaşmış dövlət antikorrupsiya orqanının - Korrupsiyaya qarşı mübarizə idarəsinin yaradılması prokurorluğa möhtərəm Prezident İlham Əliyevin dövlət səviyyəsində inam və etimadı kimi qiymətləndirilməklə yanaşı, onun strukturunun daha da təkmilləşdirilməsinə yönəldilmiş mühüm bir addım olmaqla, mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsində və işin daha səmərəli təşkil olunmasında əhəmiyyətli rol oynamışdır.

Bundan başqa, prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə, Prezident İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Ölkə başçısının prokurorluq orqanlarına və prokurorluq işçilərinə böyük inamının və etimadının, yüksək qayğısının təzahürü olaraq Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin reallaşdırılması hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün hərtərəfli zəmin yaratmışdır.

Ölkədə dövlət idarəçiliyinin müasirləşdirilməsi üzrə ardıcıl tədbirlər, ictimai həyatın bütün sahələrini əhatə edən sistemli islahatlar, hüquq sisteminin ən yüksək beynəlxalq standartlara uyğun formalaşdırılmasına və müasir dövrün tələbləri səviyyəsində təkmilləşdirilməsinə zəmin yaratmaqla, bu istiqamətlərdə görülən işlərin səmərəliliyinin artırılmasına şərait yaratmışdır. Cənab Prezidentin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” proqram xarakterli sərəncamı ölkənin hüquq və qanunvericilik sisteminin daha yüksək müstəvidə inkişafının yeni mərhələsinin başlanğıcı olmaqla, bu istiqamətdə görülən işlər üçün mühüm əhəmiyyətə malik olmuşdur.

Bu gün də ulu öndər Heydər Əliyevin əsasını qoyduğu məhkəmə-hüquq islahatları onun layiqli davamçısı İlham Əliyev tərəfindən inamla davam etdirilir. Xüsusilə qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqət göstərilir. Ölkə başçısının dəstəyi ilə dövlət səviyyəsində davam etdirilən müasir məzmunlu islahat tədbirlərinin nəticəsi olaraq bu gün Azərbaycan Prokurorluğu yeni tələblər müstəvisində səmərəli fəaliyyəti üçün təkmilləşdirilmiş mütərəqqi normativ hüquqi bazası olan, demokratik məzmunlu fəaliyyət prinsipləri və iş metodları əsasında fəaliyyət göstərən sivil dövlət təsisatına çevrilmişdir. Şəffaf və ədalətli prosedurlar əsasında kadr tərkibini mütəmadi olaraq yeniləşdirən prokurorluğun kollektivinin və hər bir əməkdaşın məsuliyyət hissi artırılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları dərhal aradan qaldırmağa təminat verən nəzarət mexanizmi yaradılmışdır.

Bu il böyük qürur və iftixar hissi ilə qeyd etməyə hazırlaşdığımız Azərbaycan Prokurorluğunun yaranmasının 100-cü ildönümüdür. Azərbaycan Prokurorluğu xalqımızın müstəqilliyi uğrunda apardığı mübarizənin tarixi ilə bərabər, çox çətin və mürəkkəb, həm də şərəfli bir inkişaf yolu keçərək, indiki səviyyədə formalaşmış, hansı şəraitdə fəaliyyət göstərməsindən asılı olmayaraq, son nəticədə xalqına və dövlətinə sədaqətlə qulluq etmiş, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə işinə öz layiqli töhfəsini vermişdir. Prokurorluq orqanlarının əməkdaşları demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirərək cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar.

Azərbaycan Respublikasının iqtisadi qüdrətinin artması, beynəlxalq nüfuzunun daha da möhkəmlənməsi, hərtərəfli sosial-iqtisadi inkişafı ilə səciyyələnən müasir dövrdə vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yolunda qarşıda duran vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi hər bir dövlət təsisatı və məmurdan, o cümlədən prokurorluq orqanlarından və onun hər bir əməkdaşından yüksək məsuliyyət və fəal vətəndaşlıq mövqeyi tələb edir. Bunu dərk edən prokurorluq işçiləri bundan sonra da öz vəzifə borclarını vicdanla yerinə yetirərək vətəninə və xalqına sədaqətlə xidmət etməyə, fəaliyyətlərini beynəlxalq standartlar səviyyəsində qurmağa, respublikamızda məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində, hüquqi sistemin möhkəmləndirilməsində fəal iştirak etməklə prokurorluğun fəaliyyətinin daha da müasirləşdirilməsinə, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin artırılmasına, insan hüquq və azadlıqlarının müdafiəsində, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunmasında yeni uğurlar əldə edilməsinə çalışmalıdırlar.

Azərbaycan Prokurorluğunun yaradılmasının 100-cü ildönümü münasibətilə mən bütün prokurorluq işçilərini təbrik edir, hər birinə tutduqları bu şərəfli peşədə və xidməti fəaliyyətlərində uğurlar arzulayıram.

**Məqsəd ORUCOV,**
**Qəbələ rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**